BİRİNCİ TÜRKOLOJİ QURULTAYDA ORTAQ ƏLİFBA PROBLEMİ

Elçin İBRAHİMOV
filologiya elmləri doktoru, dosent
Qarabağ Universiteti
Elm şöbəsinin müdiri
E-mail: elchin.ibrahimov@karabakh.edu.az,
Orcid ID: 0000-0002-1105-9345

Xülasə

cı ilin fevral ayında Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay yalnız türkologiya elminin inkişafı baxımından deyil, eyni zamanda türk xalqları arasında dil və mədəni münasibətlərin gələcəyini müəyyənləşdirən tarixi bir dönüş nöqtəsi olmuşdur. Qurultayın ən mühüm müzakirə mövzularından biri ortaq əlifba məsələsi idi. Bu kontekstdə iki əsas yanaşma ön plana çıxırdı: ərəb əlifbasının müəyyən islahatlar aparılmaqla qorunub saxlanılması və ya latın əlifbasına keçidin təmin edilməsi.

Latın əlifbasını müdafiə edənlər bu yazı sisteminin öyrənilmə baxımından sadəliyini, savadlılığın kütləviləşdirilməsinə verəcəyi töhfəni, Türk dünyasında ortaq yazı və ünsiyyət imkanları yaratmasını, eləcə də müasir elm və texnologiya ilə inteqrasiya baxımından təqdim etdiyi üstünlükləri əsas arqumentlər kimi irəli sürürdülər. Buna qarşılıq, ərəb əlifbasının tərəfdarları onun İslam mədəniyyəti ilə tarixi bağlılığını, klassik ədəbi irsin qorunmasındakı rolunu və köklü dəyişikliklərin yarada biləcəyi sosial-psixoloji çətinlikləri vurğulayırdılar.

Bu tədqiqatda Birinci Türkoloji Qurultayda ortaq əlifba məsələsi ilə bağlı irəli sürülmüş baxışlar, tərəfdar və əleyhdar mövqelərin arqumentləri, qəbul edilmiş qərarların mahiyyəti və bu qərarların türk xalqlarının sonrakı dil siyasətlərinə təsiri ətraflı şəkildə təhlil olunur. Eyni zamanda, dövrün siyasi-ideoloji şəraitinin elmi müzakirələrə necə sirayət etdiyi və ortaq əlifba ideyasının türk xalqlarının mədəni inteqrasiyasındakı yeri qiymətləndirilir.

Açar sözlər: *Birinci Türkoloji Qurultay, ortaq əlifba, dil siyasəti, Türk dünyası, latın əlifbası, milli kimlik, mədəni inteqrasiya.*

THE ISSUE OF A COMMON ALPHABET AT THE FIRST TURKOLOGICAL CONGRESS

Abstract

The First Turkological Congress, held in Baku in February 1926, represented a historic turning point not only in the development of Turkology but also in shaping the future of linguistic and cultural relations among Turkic peoples. One of the most significant topics discussed at the congress was the issue of a common alphabet. In this context, two main approaches came to the fore: preserving the Arabic script through certain reforms or ensuring a transition to the Latin alphabet.

Proponents of the Latin alphabet emphasized its simplicity in terms of learning, its potential contribution to the mass expansion of literacy, its capacity to create a common writing and communication space across the Turkic world, and the advantages it offered for integration with modern science and technology. In contrast, supporters of the Arabic script highlighted its historical connection with Islamic culture, its role in preserving the classical literary heritage, and the social and psychological challenges that radical changes might entail.

This study provides a detailed analysis of the views put forward at the First Turkological Congress regarding the common alphabet issue, the arguments of both supporters and opponents, the nature of the decisions adopted, and the impact of these decisions on the subsequent language policies of Turkic peoples. At the same time, it evaluates how the political and ideological

climate of the period permeated scholarly debates and examines the place of the idea of a common alphabet in the cultural integration of Turkic peoples.

Keywords: *First Turkological Congress, common alphabet, language policy, Turkic world, Latin alphabet, national identity, cultural integration.*

Giriş

Türk xalqları arasında dil və mədəni birlik ideyasının tarixi kökləri dərin və çoxqatlıdır. Ortaq mənəvi-mədəni irs, yaxın etno-linqvistik xüsusiyyətlər və oxşar tarixi talelər müxtəlif dövrlərdə inteqrasiya meyillərini gücləndirmişdir. Bununla yanaşı, siyasi və coğrafi parçalanmalar, fərqli dövlət idarəçilik modelləri və tarixi proseslər türk dilləri arasında fonetik və qrafik fərqliliklərin yaranmasına səbəb olmuşdur. XX əsrin əvvəlləri isə bu fərqliliklərin yenidən nəzərdən keçirildiyi və dil birliyi ideyasının elmi müzakirə mövzusuna çevrildiyi mərhələ kimi xarakterizə olunur.

Bu kontekstdə 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayı təkcə elmi toplantı deyil, həm də türk dünyasının gələcəyinə yön verən ideoloji və mədəni platforma olmuşdur. Qurultayın keçirildiyi dövr, Bolşevik hakimiyyətinin "milliləşdirmə" siyasəti çərçivəsində yerli dillərin inkişafına formal dəstək verdiyi, eyni zamanda türk xalqları arasında əlifba və dil birliyinin mümkünlüyünün müzakirə edildiyi mürəkkəb siyasi-intellektual şəraitlə səciyyələnirdi. Bu səbəbdən əlifba məsələsi yalnız texniki deyil, strateji və çoxölçülü bir problem kimi gündəmə gəlmişdir.

Birinci Türkoloji Qurultayında ərəb və latın qrafikalı yazı sistemləri arasında seçim geniş müzakirələrə yol açmışdır. Ərəb əlifbasını müdafiə edənlər onun tarixi-mədəni və dini irslə bağlılığını, mövcud savadlanma vərdişlərinə uyğunluğunu önə çəkmişlər. Lakin bu sistemin türk dillərinin fonetik quruluşunu tam əks etdirməməsi, xüsusilə sait səslərin ifadəsində yaratdığı çətinliklər, kütləvi savadlandırma prosesində ciddi maneə kimi qiymətləndirilmişdir.

Latın əlifbasının tərəfdarları isə onun fonetik prinsiplərə uyğunluğunu, oxu-yazı prosesində sadəlik yaratmasını və qısa müddətdə savadlılığın artırılmasına töhfə verə biləcəyini vurğulamışlar. Bundan əlavə, latın qrafikasının qəbulunun terminoloji birliyin formalaşmasına, elmi məlumat mübadiləsinin asanlaşmasına və ümumtürk kommunikasiya məkanının yaranmasına xidmət edəcəyi qeyd olunmuşdur.

1. Birinci Türkoloji Qurultayda əlifba müzakirələri

Birinci Türkoloji Qurultayda ən çox müzakirə olunan məsələlərdən biri yeni və ortaq türk əlifbasının yaradılması problemi olmuşdur. Ərəb qrafikasına əsaslanan əlifba bir çox türk xalqları üçün fonetik xüsusiyyətləri adekvat əks etdirmədiyindən tədris prosesində ciddi çətinliklər yaradırdı. Məhz bu səbəbdən latın əlifbasına keçid ideyası ilk dəfə elmi əsaslar üzərində məhz bu qurultayda geniş şəkildə müzakirə edilmiş və əhəmiyyətli dəstək qazanmışdır.

Alimlər bu islahatı yalnız texniki xarakterli dəyişiklik kimi deyil, eyni zamanda mədəni və ideoloji modernləşmənin mühüm aləti kimi qiymətləndirmişlər. Ortaq əlifbanın tətbiqi həm türk xalqları arasında ünsiyyət imkanlarını genişləndirəcək, həm də ümumtürk mədəni birliyinin möhkəmlənməsinə xidmət edəcəkdi. Bu təşəbbüs sonralar 1928-1930-cu illərdə Sovet İttifaqının tərkibində olan bir sıra türk respublikalarında həyata keçirilmiş əlifba islahatlarının nəzəri və ideoloji əsasını təşkil etmişdir (İbrahimov, 2025, s. 11).

Qurultayın ilk iclası 26 fevral 1926-cı ildə İsmailiyyə binasında keçirilir, iclasa Səməd bəy Ağamalıoğlu başçılıq edir və qurultay öz işinə başlayır. Qurultaya sədrlik edən Səməd bəy Ağamalıoğlu tədbir iştirakçılarını salamladı və Sovet Sosialist Azərbaycanında keçirilən ilk Türkoloji Qurultayın birinci iclasını açıq elan etdi. O, çıxışında qeyd etdi: *"Türkoloji qurultayın əhəmiyyətini bir neçə sözlə ifadə etmək kifayət qədər çətindir. Türkoloji Qurultay inqilabın mədəni və elmi mahiyyətini önə çıxararaq, dil, yazı və əlifba məsələlərinin elmi əsaslarla həllinə zəmin yaradır. Burada aparılan fikir mübadiləsi həm elmin inkişafı, həm də türk-tatar*

xalqlarının mədəni yüksəlişi üçün mühüm əhəmiyyət daşıyır. Qurultay türkologiya elminin və türk ədəbiyyatının inkişafına güclü təkan verəcək, türk xalqlarına dəyərli mənəvi töhfə kimi yadda qalacaqdır. Mən qurultaya müvəffəqiyyətlər, azərbaycanlılara isə böyük qonaqpərvərlik arzulayıram" ("Kommunist" qəzeti, 50 (1645, 28 fevral 1926-cı il).

Birinci Türkoloji Qurultayında ən çox müzakirə olunan və diqqət çəkən məsələlərdən biri əlifba islahatı olmuşdur. Qurultayın gündəliyində dilçilik, tarix, ədəbiyyat, folklor və terminologiya ilə bağlı müxtəlif sahələr üzrə təqdimatlar olsa da, məhz əlifba məsələsi həm məruzələrin miqyasına, həm də müzakirələrin dərinliyinə görə xüsusi əhəmiyyət daşıyırdı.

Qurultayın rəsmi protokollarına əsasən, ümumilikdə keçirilmiş 17 iclasdan üçü – 10-cu, 11-ci və 12-ci iclaslar – tam şəkildə əlifba məsələsinə və onunla bağlı məruzələrə, çıxışlara və diskussiyalara həsr olunmuşdur. Bundan əlavə, 9-cu iclasın sonunda Sovet nümayəndəsi professor Nikolay Yakovlevin əlifba ilə bağlı geniş çıxışı da bu məsələnin önəmini bir daha vurğulayır.

2 mart 1926-cı il tarixində keçirilən 9-cu iclasında çıxış edən görkəmli Sovet dilçi-alimi Nikolay Yakovlev Moskvadakı Şərq Xalqlarının Öyrənilməsi Komitəsinin Şərq xalqlarının milli əlifbalarının yayılması ilə əlaqədar tərtib etdiyi xəritəni göstərərək bildirirdi ki*, "Bu rəngli xəritəyə baxarkən siz rus, latın və ərəb əlifbalarının Şərqdə daha geniş yayıldığının şahidi olacaqsınız"*. Əlifbaların əhəmiyyətini önə çəkən alim onu da vurğulayırdı ki, *"Əlifba məsələsində dini mənsubiyyət çox mühüm əhəmiyyətə malikdir. Lakin bu da unudulmamalıdır ki*, *həm mədəniyyət, həm də mədəniyyət faktı olmaqla yazı tarixi bizə nümayiş etdirir ki, inkişaf edərkən mədəniyyət, yazı və elm yalnız müəyyən mərhələyə qədər dinlə bütövlükdə bağlı olur. Əlifba məsələsində dini mənsubiyyət mühüm olsa da, tarix göstərir ki, mədəniyyət və yazı müəyyən mərhələdən sonra dindən ayrılaraq elmi əsasda inkişaf edir. Türk xalqları da hazırda bu mərhələdən keçir və bu, milli özünütəyin prosesinin vacib hissəsidir. Latın əlifbasına keçid çətin görünsə də, bu, yazının və mədəniyyətin təbii inkişaf yoludur. Ən geridə qalmış xalqlardan başlamaq daha məqsədəuyğundur, çünki bu, islahatın uğurla həyata keçirilməsinə şərait yaradar. Nəticədə, ərəb əlifbasını müdafiə edənlər belə bu dəyişimin zəruriliyini dərk edəcəklər"* (Nərimanoğlu və Ağakişiyev, 2006, 2009).

Qurultayın stenoqramları və bu istiqamətdə aparılan ətraflı elmi-tarixi araşdırmalar sübut edir ki, əlifba məsələsi Qurultay iştirakçıları tərəfindən yalnız texniki və dilçilik problemi kimi deyil, həm də dərin ideoloji, mədəni və siyasi çalarları olan bir məsələ kimi qiymətləndirilmiş və müzakirə olunmuşdur. Bu müzakirələr zamanı iştirakçılar arasında müxtəlif baxışlar, fərqli yanaşmalar və dünyagörüşlər ortaya çıxmış, nəticədə bəzən bu fikir ayrılıqları müəyyən qruplaşmaların formalaşmasına gətirib çıxarmışdır. Həmin qruplaşmaların mövcudluğu bir daha sübut edir ki, əlifba dəyişiklikləri məsələsi sadəcə hərflərin dəyişdirilməsi və ya qrafik sistemin təkmilləşdirilməsi ilə bağlı deyil, bütövlükdə türk xalqlarının gələcək mədəni inkişafı, ictimai tərəqqisi və milli kimliklərinin formalaşması baxımından strateji əhəmiyyət daşıyan bir məsələ kimi qiymətləndirilmişdir.

Beləliklə, əlifba məsələsi Qurultayda həm birləşdirici, həm də mübahisə doğuran bir məsələ kimi çıxış edərək dərin və çoxistiqamətli diskussiyalara səbəb olmuşdur. Müzakirələrin gedişində iştirakçıların fərqli mövqelər nümayiş etdirməsi, əlifba məsələsinin yalnız texniki deyil, həm də mədəni, ideoloji və siyasi kontekstlərdə qiymətləndirildiyini göstərmişdir. Məhz bu fərqli baxışları nəzərə alaraq, Qurultay iştirakçılarının əlifba ilə bağlı mövqelərini şərti olaraq dörd əsas qrupa;

1. Ərəbpərəstlər (və ya mühafizəkarlar), 2. İslahatçılar, 3. Latınpərəstlər, 4. Kiril tərəfdarları bölmək mümkündür.

Əvvəlcə Qurultayda ərəb əlifbasının qorunub saxlanılmasını müdafiə edənlərin mövqeyini nəzərdən keçirək. Bu qrupun nümayəndələri əsasən ənənəvi düşüncəyə, dini və tarixi mirasa bağlı olan şəxslərdən ibarət idi. Onlar ərəb əlifbasını yalnız bir yazı sistemi kimi deyil, eyni zamanda islam dünyasına mənsubiyyətin, dini mədəniyyətin daşıyıcısı və ümumtürk irsi ilə yanaşı, müsəlman sivilizasiyası ilə əlaqənin rəmzi kimi qiymətləndirirdilər. Əlifbanın

dəyişdirilməsinin nəticə etibarilə dini maarifləndirməyə, xüsusilə də Qurani-Kərimin və klassik İslam ədəbiyyatının oxunmasına mənfi təsir göstərəcəyi barədə narahatlıqlar ifadə olunurdu.

1) *Ərəbpərəstlər (və ya mühafizəkarlar)*. Ərəbpərəstlər qrupuna daxil olan nümayəndələr ərəb əlifbasının qorunmasının zəruriliyini vurğulayırdılar. Onların fikrincə, ərəb əlifbası çox zəngin və mükəmməl bir yazı sistemidir və türk dillərinin leksik-semantik xüsusiyyətlərinə uyğunluğu ilə seçilir. Bu əlifba əsrlər boyu formalaşmış və xalqın mədəni yaddaşında möhkəm yer tutmuşdur. Ərəbpərəstlər hesab edirdilər ki, əlifbanın dəyişdirilməsi dilin təbii inkişafını pozmaqla yanaşı, həm də milli-mənəvi dəyərlərə zərbə vuracaqdır.

Bu qrupun nümayəndələri, həmçinin, əlifbanın dəyişdirilməsinin xarici təsirlərdən qaynaqlandığını və milli kimliyə təsir edən mənfi bir proses olduğunu iddia edirdilər. Onların mövqeyi ənənə və dini-mədəni bağlılıq əsasında formalaşmışdı, ərəb əlifbasının qorunmasını milli-mənəvi möhkəmlik və tarixə hörmət kimi dəyərlərlə əlaqələndirirdilər.

Qurultayın 3 mart 1926-cı ildə keçirilən 10-cu iclasında çıxış edən Tatarıstandan olan nümayəndə, Pedaqoji İnstitunun müəllimi Qalimcan Şərəf təqdim etdiyi *"Ərəb və latın yazı sistemləri və onların türk-tatar xalqları üçün tətbiqi məsələsi" adlı məruzədə ərəb və latın əlifbalarının texniki və elmi imkanları təhlil edilmişdir. Məruzədə bildirilir ki, dünyadakı türk xalqlarının təxminən 90%-i əsrlər boyu ərəb əlifbasından istifadə etmiş, 7-8%-i isə rus qrafikasını qəbul etmişdir. Latın əlifbasına kütləvi keçid baxımından yakutlar birinci olmuşlar. Hazırda latın əlifbasını dəstəkləyənlər mövcuddur, praktik tətbiq isə geniş yayılmayıb. Yazının dəyişdirilməsi ciddi məsuliyyət tələb edir: əhalinin yenidən təhsili, paralel nəşrlər, müəllimlərin hazırlanması, mətbəə və lüğət institutlarının yenilənməsi, sosial düşüncədə dəyişikliklər. Yazının praktik istifadəsi baxımından əsas meyarlar dil səslərinin ifadəsi, oxuma sürəti, mətbəə texnologiyasına uyğunluq, oxu materiallarının mövcudluğu, beynəlxalq faydalılıq və vizual estetikadır. Ərəb əlifbası 28 əsas hərfdən ibarət olub, türk xalqları üçün 36 hərfə çatdırılmışdır. Saitlərin göstərilməsi üçün sait uyumu və qoşa sait üsulları tətbiq edilmişdir"* (Stenoqram, 1926, s. 242-260).

Latınpərəstlər (latın əlifbasını müdafiə edənlər) hesab edirdilər ki, ərəb əlifbasının tərəfdarları arqumentsiz danışır, texniki və pedaqoji cəhətdən artıq dövrün tələblərinə cavab verməyən bir sistemi müdafiə edirlər. Onlara görə ərəb qrafikası savadlanma səviyyəsinin aşağı olmasının, yazı sürətinin zəifliyinin və çap texnologiyasına uyğunsuzluğun əsas səbəblərindən biri idi. Buna görə də latın əlifbasına keçid həm savadlanmanın artması, həm də yeni nəşriyyat, təhsil və texnoloji imkanların istifadəsi baxımından vacib idi. Bu fikirlər Türkoloji Qurultayda açıq şəkildə ifadə olundu və bu istiqamətdə təkliflər irəli sürüldü.

Ərəb qrafikasının tərəfdarları hesab edirdilər ki, əlifbanın dəyişdirilməsi yalnız texniki bir yazı sistemi dəyişikliyi ilə məhdudlaşmayacaq, həm də elmi-mədəni inkişaf prosesinə mənfi təsir göstərəcəkdir. Onların qənaətinə görə, yeni əlifbaya keçid ədəbi-bədii irsin, dini-fəlsəfi mətnlərin və mövcud elmi bazanın qavranılmasını çətinləşdirəcək, bunun nəticəsində isə xalq intellektual potensialını tam şəkildə reallaşdıra bilməyəcəkdir. Beləliklə, ərəb əlifbasının tərəfdarları bu dəyişikliyi ümumi tərəqqidən geri qalmaq və mədəni-intelektual inkişafın ləngiməsi təhlükəsi kimi dəyərləndirirdilər. Bütün bunlara etiraz edən, 3 mart 1926-cı ildə keçirilən 11-ci iclasında çıxış edən Umar Əliyev ərəb qrafikasının tərəfdarlarına üz tutaraq deyirdi: *"Şimali Qafqazda yazı məsələsi dəfələrlə müzakirə olunmuşdur. 1925-ci ildə Rostovda ərəbpərəstlərlə mübahisədə Tatarıstan Xalq Maarif Komissarının müavini Məhəmməddinovun təklifi yalnız öz səsi ilə qəbul olunmuşdu. SSRİ Türkoloji Qurultayında isə bu məsələ yenidən müzakirə olunmuşdur. Latınlaşdırma təcrübəsi göstərdi ki, latın əlifbası əsasında fəaliyyət göstərən məktəblərdə oxu-yazma daha sürətli öyrənilir. Ərəbpərəstlərin narazılığı, Quran qrafikasından fərqli yazının problem yaradacağı iddiası təsdiqlənməmişdir. Ərəb əlifbası XIII əsrdən istifadə olunub, lakin bəzi türk dillərinin fonemalarını ifadə edə bilmir, saitlərin olmaması və oxşar işarələr təhsil və nəşriyyatda çətinliklər yaradır. Mətbəə işi 50% daha baha başa gəlir və texnologiyaya uyğun deyil. Latınlaşma isə oxu-yazmanı sadələşdirir, təhsil və nəşriyyat işini sürətləndirir, əlavə hərf ehtiyacını aradan qaldırır və müasir texnologiya ilə uyğundur. Bu islahat həm təhsili*

sürətləndirir, həm də iqtisadi, mədəni inkişafı, oxu-yazmanın kütləvi yayılmasını və milli mədəniyyətin inkişafını təmin edir" (Steneqram, 1926: 268-272).

Umar Aliyevin çıxışından gəlinən nəticəni belə verə bilərik: ərəb əlifbası türk dillərinin xüsusiyyətlərinə tam uyğun gəlmir və onun tətbiqi ciddi çətinliklər yaradır. Ərəb qrafikasının fonetik strukturunun türk dillərindəki səsləri ifadə etməkdə məhdudiyyətləri, oxumaqda və yazmada çaşqınlığa səbəb olması, həmçinin texniki cəhətdən mürəkkəbliyi və tipoqrafik problemləri geniş yayılmış narazılıqlara yol açır. Bu əlifba ilə maarifləndirmə prosesinin yavaş və çətin getməsi, savad səviyyəsinin artırılmasında ciddi əngəllər törədir. Digər tərəfdən, latın əlifbasına keçid türk xalqları üçün yalnız əlifbanın dəyişdirilməsi kimi sadə bir proses deyil, həm də mədəni və ictimai inkişafa açılan bir qapıdır. Latın qrafikası daha sadə, öyrənilməsi asan və səslərə daha uyğun olduğundan təhsil prosesini sürətləndirir, geniş kütlələrin savadlanmasını mümkün edir. Bu keçid, həmçinin türk xalqları arasında ünsiyyətin və mədəni inteqrasiyanın güclənməsinə şərait yaradır, çünki latın əlifbası bir çox digər xalqlarda da istifadə edilir və beynəlxalq əlaqələri asanlaşdırır.

Qurultayın 3 mart 1926-cı ildə keçirilən 11-ci iclasında çıxış edən, xüsusilə, latın əlifbasının tərəfdarı olan Tatarıstan yazıçısı, ictimai xadim, həmçinin Təşkilat Komitəsinin üzvü Alimcan İbrahimov çıxışında qeyd edirdi: *"Yoldaşlar, çıxışımı hesabat şəklində təqdim edirəm. Hesabat üç mövzunu əhatə edir: mövzuya əsas yanaşma, Azərbaycan və Şimali Qafqaz xalqları ilə bəzi türk respublikalarında aparılan təcrübələr, Tatar Respublikasının bu mövzuya yanaşması. Əsas fikrimiz odur ki, latın əlifbasına qarşı ciddi etiraz yoxdur. 1924-cü ildə Moskvada keçirilmiş tatar-başqırd maarifçilərinin Ümumrusiya Qurultayında da latın əlifbasının üstünlükləri qəbul edilmişdi. Azərbaycanda və Şimali Qafqazda aparılan təcrübələr dəyərlidir, tarixi baxımdan əhəmiyyət kəsb edir. Tatar Respublikasında tatar cəmiyyətində 600 illik ədəbiyyat və 125 illik çap tarixi mövcuddur, ərəb əlifbasının islahatı sahəsində uğurlar əldə edilmişdir. Mətbuat, dərsliklərin yayımı və oxu evləri sayəsində əlifba islahatı geniş ictimai dəstək alır. Latın əlifbasına keçid hələ kəskin problem deyil; mövcud sistemi tədricən təkmilləşdirmək vacibdir. Yekun olaraq, Tatar Respublikası yalnız mövcud şəraitə uyğun davranır; islahat vasitəsilə ərəb əlifbası təkmilləşdirilməli, oxu prosesi qorunmalı və sosial, tarixi və mədəni xüsusiyyətlər nəzərə alınmalıdır"* (Stenoqram , 1926: 277-280).

Qalimcan İbrahimovun çıxışından aydın olur ki, əlifba məsələsi sadəcə yazı sisteminin dəyişdirilməsi deyil, həm də türk xalqlarının milli-mədəni, sosial və siyasi inkişafı ilə bağlı çoxşaxəli və mürəkkəb bir məsələdir. Qurultay iştirakçıları bu mövzunu yalnız texniki aspektlərdən yox, eyni zamanda ideoloji və mədəni baxımdan da böyük prinsipiallıqla müzakirə etmişlər. Ərəb əlifbasının tarixi kökləri, milli-mədəni dəyərləri və Şərq mədəniyyətinə bağlılığı nəzərə alınsa da, latın əlifbasının praktik üstünlükləri və təhsil prosesində yaratdığı şəffaflıq kimi cəhətlər ciddi şəkildə qiymətləndirilmişdir.

Qalimcan İbrahimov vurğulayır ki, əlifba islahatı yalnız bir yazı sisteminin dəyişdirilməsi deyil, həm də millətin dil və mədəniyyətini qorumaq, eyni zamanda təhsil və kommunikasiya sahəsində effektivliyi artırmaq məqsədi daşıyır. Buna görə də, bu məsələdə hər bir addım diqqətlə, məsuliyyətlə və geniş müzakirələr fonunda atılmalıdır. Yalnız bu şəkildə türk xalqlarının mədəni birliyi və inkişafı təmin edilə bilər.

Elə buna görə də, əlifba məsələsi müzakirələrinin davamı olaraq 4 mart 1926-cı ildə keçirilən 13-cü iclasda da bu mövzu yenidən gündəmə gətirilmiş və qızğın fikir mübadiləsi aparılmışdır. Həmin iclasda çıxış edən görkəmli mədəniyyətşünas, dilçi və iqtisadçı alim Qalimcan Şərəf böyük inamla bildirirdi ki, müxtəlif yazı sistemlərini müqayisə etdikdə, ərəb əlifbası mövcud şəraitdə daha geniş kütlələr tərəfindən mənimsənilmiş və üstünlük təşkil etmişdir. Onun fikrincə, ərəb əlifbasından latın əlifbasına keçidin mədəni və iqtisadi inkişafımıza kömək etməkdən çox, bir neçə il müddətində irəliyə doğru inkişafımızı ləngidə biləcəyi ehtimalı yüksəkdir.

Qalimcan Şərəf çıxışında qeyd edirdi: *"Yoldaşlar, çıxışımda əvvəlcə verilən suallara toxunmaq istəyirəm. Yoldaş Məmmədzadə saitlərin azlığı məsələsini qaldırdı; bu, orfoqrafiya ilə*

bağlıdır və yazı ilə qarışdırılmamalıdır. Əgər saitlər yetərli deyilsə, şimal türklərində olduğu kimi ərəb sistemindən nümunə götürülərək əlavə edilməlidir. Professor Yakovlev islah edilmiş hərflərin tətbiqinin çətin olub-olmamasını soruşdu. Biz islahatı elə həyata keçirməliyik ki, xalq yazını asanlıqla mənimsəsin; savadlıların şüurundakı heroqliflər qorunmalı, yalnız bir forma saxlanılmalıdır. Köhnə və yeni hərflərin qarışdırılması mümkündür, amma oxu və yazı qaydaları ümumidir. Latın əlifbasına qarşı etirazlar həm əsaslı, həm də əsassızdır; biz əslində latın əlifbasına qarşı deyilik, sadəcə oxu prosesinin rahatlığını nəzərə alırıq. Ərəb yazısının üstünlükləri, xüsusilə imla və oxu prosesində, hələ böyükdür. Ərəb əlifbasının islahı davam etdirilməli, oxu prosesi qorunmalı, latın qrafikasının tətbiqi isə yalnız öyrənmə və təcrübə məqsədilə nəzərdən keçirilməlidir" (Stenoqram, 1926, s. 305-309).

Qalimcan Şərəfin çıxışından belə ümumi nəticəyə gəlmək olar ki, o, əlifba məsələsini sırf texniki dəyişiklik kimi deyil, milli bir məsələ, ümumtürk inteqrasiyasının və mədəni tərəqqinin əsas şərti kimi qiymətləndirir. O, yeni latın qrafikalı əlifbanın qəbulu ilə türk xalqları arasında ortaq anlaşmanın və ümumi kommunikasiya sisteminin formalaşacağını vurğulayır. Şərəf əlifbanın dəyişdirilməsinin sadəcə bir yazı islahatı olmadığını, bunun milli düşüncə tərzinə, maarifin inkişafına, elmi və ədəbi irsin vahid məkanda paylaşılmasına zəmin yaratdığını əsaslandırır.

Daha sonra mövzu ətrafında Qurultayın təşkilat komitəsinin üzvü, jurnalist Nazir Türyaqulov 4 mart 1926-cı ildə keçirilən 13-cü iclasında çıxış edərək qeyd edir: *"Yoldaşlar, mən çıxışımda yalnız mədəniyyət və maarifçiliklə bağlı texniki məsələlərə diqqət yetirəcəyəm. Qalımcan Şərif və bəzi çıxışçılar latın əlifbasına qarşı çıxdılar, lakin heç bir konkret sübut təqdim etmədilər. Əlifba məsələsi təkcə texniki deyil, həm də böyük ictimai və mədəni əhəmiyyət daşıyır və onun uğurlu tətbiqi Azərbaycan, Şimali Qafqaz və Türkmənistan nümunəsində açıq-aydın görünür. Qazax müttəfiqlərinin səhvləri nəzərə alınmadan keçilmiş, bu isə bəzi tərəfdarların arqumentlərini zəif edir. Hüseyn Cəlilinin İstanbul misalı göstərir ki, insanlar vərdiş və rahatlıq səbəbi ilə köhnə üsullara sadiq qalırlar, amma biz yeni sistemin tətbiqinə üstünlük verməliyik. Əlifba islahatı yalnız texniki dəyişiklik deyil, həm də mədəni inkişaf və oxu prosesinin asanlaşdırılması baxımından önəmlidir. Beləliklə, islahatın məqsədi praktik, aydın və xalq tərəfindən mənimsənilə bilən bir sistem yaratmaqdır"* (Stenoqram, 1926, s. 309-310).

O, əlifba məsələsinin təkcə texniki problem olmadığını, həmçinin ictimai-siyasi və mədəni əhəmiyyət daşıyan kompleks bir məsələ olduğunu bildirir. N.Türyaqulovun fikrincə, əlifba dəyişiklikləri yalnız qrafik sistemi kimi deyil, həm də xalqın maariflənməsi, savadlılığının artırılması və ümumi tərəqqi istiqamətində atılan vacib addımdır. Bu baxımdan, əlifba islahatlarının məqsədi yeni əlifbanın daha asan öyrənilməsi, tətbiqi və xalqın mədəni inkişafına xidmət etməsidir.

Həmin iclasda mövzu ilə bağlı çıxış edən Umar Aliyev çıxışında qeyd edirdi: *"Yoldaş Şərəf latın əlifbası üçün elmi prinsiplərin tətbiqini açıq göstərmədi. Biz isə tətbiqimizdə hər fonem üçün işarə müəyyənləşdirmə, sadə xətti simvollar seçimi, rus hərflərindən imtina, oxşar işarələrin təkrarlanmaması, diftonqlardan qaçmaq və uzun saitlərin göstərilməsi kimi prinsipləri tətbiq etmişik. Bu yanaşma latın qrafikasının türk xalqları ilə uyğunlaşmasını, oxu-yazının asanlaşmasını və müasir pedaqogika tələblərinə cavab verməsini təmin edir. Latın əlifbasının üstünlükləri açıqdır: beynəlxalq istifadəsi, sadə xətləri, mətbəə və yazı maşınlarına uyğunluğu, oxu sürəti və yazı zamanı qənaət təmin etməsi. Ərəb əlifbası isə 28 hərfdən yalnız 19-20-si türk dillərinin səslərini ifadə edə bilir; oxu və mətbəə rahatlığı baxımından latın əlifbası üstünlük təşkil edir. Təcrübələr göstərir ki, latın qrafikalı materiallar paralel təqdim edildikdə həm savadlı, həm də savadsız insanlar qısa müddətdə yeni əlifbanı mənimsəyə bilir. Latın əlifbası yalnız texniki yenilik deyil, həm də türk xalqlarının mədəni, elmi və ictimai inkişafı üçün strateji əhəmiyyət daşıyır. O, savadsızlığı aradan qaldırır, geniş oxu imkanları yaradır, beynəlxalq əlaqələri gücləndirir və bütün türk xalqları üçün birləşdirici vasitədir"* (Stenoqram, 1926, s. 310-313).

Umar Əliyev çıxışında göstərir ki, latın qrafikasına keçid zamanı elmilik əsas prinsip kimi götürülmüş, fonemlərin dəqiq əks olunması, sadə və praktik işarələrin seçilməsi, digər dillərin spesifik səsləri üçün əlavə işarələrin tətbiq olunmaması, yazının öyrənilməsinin asanlaşdırılması, texniki və pedaqoji uyğunluq, vahidlik və beynəlxalq əlaqəlilik kimi məsələlər əsas götürülmüşdür. O, həmçinin qeyd edir ki, bu prinsiplər şəxs nüfuzuna deyil, kollegial şəkildə qəbul olunmuş elmi yanaşmalara əsaslanır. Latın əlifbasının üstünlükləri kimi onun beynəlxalq aləmdə geniş yayılması, müasir elmi və pedaqoji tələblərə cavab verməsi, yazı prosesində sadəlik və effektivlik təmin etməsi, həmçinin oxu-yazı öyrənilməsində ərəb qrafikasına nisbətən xeyli vaxt qənaəti ilə nəticələnməsi vurğulanır.

Həmin iclasda çıxış edən Ümumrusiya Şərqşünaslarının elmi assossiasiyasının üzvü, professor Lev Jirkov müzakirə olunan məsələlərə iki aspektdən yanaşaraq öz fikirlərini aşağıdakı şəkildə qeyd edir: *"Mən əlifba məsələsi ilə bağlı yoldaşların, o cümlədən yoldaş Şərəfin çıxışlarını dinlədim. Ümumiyyətlə, məsələ ərəb əlifbasının tərk edilməsi və latın əlifbasının tətbiqi kimi təqdim olunur, amma əslində daha mürəkkəbdir. Ərəb əlifbası hələ uzun müddət istifadə olunacaq, latın əlifbası isə müasir tələblərə cavab verərək həyatımıza daxil olur. Yoldaş Şərəf texniki tərəfləri araşdırsa da, çıxışı sübutsuz və əsaslandırılmamış idi; faiz müqayisələri praktik istifadəyə yetərli deyildi. Ərəb əlifbası oxu və yazı sürətində problemlər yaradır, sözün müxtəlif mövqelərində hərflər oxunu çətinləşdirir. Latın əlifbası isə sadə, düz xətli, oxu və yazını sürətlə mənimsəməyə imkan verən, həm ayrı, həm də birləşdirilmiş formada istifadə oluna bilən sistemdir. Mətbəə və yazı maşınlarında tətbiqi rahatdır, nəşrləri ucuzlaşdırır, məhsuldarlığı artır, beynəlxalq əlaqələr üçün uyğundur və müxtəlif türk xalqları arasında uyğunluğu təmin edir"* (Stenoqram, 1926, s. 313-316).

Lev Jirkovun çıxışlarından aydın görünür ki, o, əlifba məsələsinə sırf texniki və funksional aspektdən yanaşır və latın qrafikalı yeni türk əlifbasını bir çox mühüm parametrlərə görə ərəb qrafikasından üstün hesab edir. L.Jirkov bu mövqeyini sadəcə ideoloji ya da modernist arqumentlərlə deyil, çoxsaylı konkret və real faktlarla əsaslandırır. O, latın qrafikasının fonetik prinsiplərə daha uyğun qurulduğunu, fonemlərin sabit şəkildə ifadə olunmasına şərait yaratdığını, çap və qrafik imkanlarının daha geniş və əlverişli olduğunu vurğulayır.

Qeyd edildiyimiz kimi, Qurultayda əlifbanın islahı məsələsində ikinci tərəf, yəni islahatçılar da iştirak edirdi. Onların əsas məqsədi ərəb əlifbasını islah etmək, mövcud çatışmazlıqları aradan qaldırmaq və yazını oxunuş baxımından sadələşdirmək idi. İslahatçılar Qurultayda müxtəlif təklif və modellər irəli sürərək ortaq əlifba ideyasının praktik tətbiqini təmin etməyə çalışırdılar. Onların çıxışları və təklifləri həmin dövrün elmi, siyasi və mədəni diskussiyalarına mühüm töhfə verirdi.

İslahatçılar – bunlar ərəb əlifbasını saxlamağın, lakin asanlaşdırmaq məqsədilə üzərində müəyyən dəyişikliklərin aparılmasının tərəfdarı idilər.

Qurultayın 4 mart 1926-cı il tarixli 12-ci iclasında çıxış edən Özbəkistan nümayəndəsi Raxim İnoqamov ərəb əlifbasının və ya islah edilmiş ərəb əlifbasının əleyhinə idi. R.İnoqamov qeyd edirdi ki, bəzi şəxslər ərəb əlifbasının dəyişdirilməsinin zərərli olduğunu iddia edir, bu fikri isə əsasən dini və tarixi arqumentlərlə müdafiə edirlər.

Ancaq R.İnoqamov bu arqumentləri qəbul etməyərək bildirirdi ki, ərəb əlifbası türk xalqlarının fonetik xüsusiyyətlərinə uyğun deyil, bu səbəbdən də həm oxu, həm yazı prosesində ciddi çətinliklər yaradır. O, deyirdi: *"Mənə elə gəlir ki, latın və ərəb əlifbaları məsələsində mövqe tam aydın olmalıdır. Tatar nümayəndə heyətinin latın əlifbasına prinsipial etirazı yoxdur, lakin əməli baxımdan müəyyən tərəddüdləri var. Digər çıxışçılar isə latın əlifbasının ərəb əlifbasından geri olduğunu iddia edirlər, bu da göstərir ki, prinsipial etiraz yoxdur deyə bilmərik. Ərəbpərəstlər islah olunmuş ərəb əlifbasının bir neçə layihəsini təqdim ediblər, lakin bunlar latın əlifbasından üstün deyil. 500 illik ədəbiyyat arqumenti də əsassızdır, çünki əhali yeni islah olunmuş əlifbanı çətin oxuyur. Ümumilikdə, Tatarıstandan və digər yerlərdən olan nümayəndələr məsələni düzgün iş praktikasına əsaslanaraq qiymətləndirməli, millətçi və dinçi*

yanaşmalarla qarışdırmamalıdırlar. Prinsipial etiraz varsa, bunu işdə sübut etmək mümkündür" (Stenoqram, 1926, s. 283-284).

Azərbaycan Dövlət Universitetinin müəllimi Cabbar Məmmədzadə 1926-cı ilin 3 mart tarixində keçirilən Qurultayın 10-cu iclasında etdiyi çıxışında əlifba məsələsinə dair öz fikirlərini geniş şəkildə izah etmişdi. O, çıxışında əsasən əlifba islahatı məsələsinin mahiyyətini izah edərək, bu prosesin yalnız texniki bir dəyişiklik olmadığını, mədəni və ictimai mahiyyət daşıdığını vurğulamışdı.

C.Məmmədzadə çıxışına belə başlamışdı: *"Yoldaşlar, bu məsələ ətrafında çox danışıldı. Mən bütün deyilənləri diqqətlə dinlədim və gördüm ki, bəziləri məsələnin mahiyyətini düzgün anlamır. Məsələnin texniki tərəfi ilə mədəni tərəfi bir-birinə qarışdırılır. Əlifba dəyişiklikləri sadəcə texniki məsələ deyil, bu, xalqın maariflənməsi, mədəni inkişafı və gələcək nəsillərin təhsili üçün əsaslı bir addımdır"* (Stenoqram, 1926, s. 239).

C.Məmmədzadə çıxışında xüsusilə bəzi nümayəndələrin "latın qrafikasında saitlərin sayı azdır, bəs bu vəziyyətdə necə olacaq?" sualına cavab vermişdi: *"Bu sual üç dəfə təkrarlandı. Mən açıq şəkildə bildirirəm: Əgər latın qrafikasında bizim dillərimizin fonetik səslərini ifadə etmək üçün kifayət qədər işarə yoxdursa, əlavə işarələr əlavə edərək bu problemi həll etmək olar. Əsas odur ki, xalq öz dilində rahat yaza və oxuya bilsin"* (Stenoqram, 1926: 240).

C.Məmmədzadə eyni zamanda latın qrafikasına keçidin ictimai nəticələrinə də toxunmuşdu: *"Latın əlifbasına keçmək bizim üçün sadəcə yazı dəyişmək deyil, bu, maarifçilik hərəkatının, ümumi savadlanmanın, xalqın təhsildə irəliləməsinin başlanğıcıdır. Sadə, asan öyrənilən yazı sisteminə keçmək xalqın oxuyub-yazmaq imkanlarını genişləndirəcək, yeni nəslin təhsil almasını asanlaşdıracaq"* (Stenoqram, 1926, s. 240).

O, əlavə etmişdi ki, "xalqın yazısı gözəl görünsün deyə çətinləşdirilmiş yazı sistemləri saxlamaq doğru deyil". C.Məmmədzadənin fikrincə, yazının gözəlliyi deyil, funksionallığı əsas olmalıdır: *"Bəziləri deyirlər ki, ərəb əlifbasının yazısı daha gözəldir. Amma sual verirəm: xalqımızın savadsızlığı, maarifsizliyi bu "gözəl" yazıdan doğmurmu? Biz xalq üçün yazını asanlaşdırmalıyıq. Əgər bir yazı xalqın inkişafına mane olursa, o yazı gözəl deyil, köhnəlmiş və ziyanlıdır"* (Stenoqram, 1926, s. 241).

C.Məmmədzadənin çıxışı bir növ Qurultay iştirakçıları üçün bir çağırış idi. O, bütün türk xalqlarını elm, maarif yolunda birləşməyə və köhnə əlifba sistemindən imtina edərək latın əsaslı yeni əlifbanı qəbul etməyə çağırmışdı: *"Bu gün biz təkcə bir əlifba məsələsini müzakirə etmirik. Bu gün biz millətlərin gələcəyini, inkişaf yolunu müəyyənləşdiririk. Biz latın qrafikasına keçməklə xalqımızı təhsildə, mədəniyyətdə, elm və texnologiyada irəli aparacağıq. Əks halda köhnə düşüncə tərzindən, savadsızlıqdan qurtulmaq mümkün olmayacaq"* (Stenoqram, 1926, s. 241).

Qurultayda üçüncü tərəf latınpərəstlər idi. *Latınpərəstlər* çoxluq təşkil edirdi və onlar çalışırdı ki, latın əlifbasına keçirilsin. Etiraf edilməlidir ki, qurultaya qədər bu istiqamətdə müəyyən əməli işlər də görülmüşdü. Məsələn, "Yeni yol" qəzetinin 1922-ci ildən latın əlifbası ilə çap edilməsi buna sübutdur.

Qurultayın özündə də bir çox ziyalılar latın əlifbasına keçməyin səmərəliliyində israrlı olduqlarını gizlətmədilər. 4 mart 1926-cı il tarixində keçirilən 12-ci iclasda çıxış edən Sultan Məcid Əfəndiyev qeyd edirdi: *"Yoldaşlar, əvvəlki məruzəçilər latın əlifbasının texniki üstünlüklərini göstərdilər. Mən isə yalnız əleyhdar arqumentlərinə toxunacağam. Bəzi tənqidçilər Avropadakı mürəkkəb əlifbaların mövcudluğunu əsas gətirir, lakin unudurlar ki, oradakı köhnə ənənələr tərəqqini ləngidə bilər; bizdə isə Oktyabr İnqilabı ilə köhnə qalıqlar ləğv olunub. Əleyhdarlar ərəb əlifbası ilə çap olunmuş ədəbiyyatın itəcəyini düşünür, amma Mirzə Mülküm Xan hesablayıb ki, xərclər minimaldır. Əslində, latın əlifbasının tətbiqi ərəb əlifbasını istisna etmir; hər iki sistem paralel mövcud ola bilər. Latın əlifbası geridə qalmış ölkələrdə savadlanma və mədəni inkişaf üçün ən səmərəli vasitədir. Onun qəbulu ruhanilərin hökmranlığından xilas edir, mədəni nailiyyətləri gücləndirir və hətta Avropa kapitalistlərinin bizə münasibətini dəyişməyə səbəb ola bilər. Yeni yolumuz – latın əlifbası – həm savad, həm*

mədəni inkişaf, həm də xalqın mövqeyinin güclənməsi üçün vacibdir" (Stenoqram, 1926, s. 284-286).

Sultan Məcid Əfəndiyev latın əlifbasına qarşı irəli sürülən etirazların əsasız olduğunu sübut etməyə çalışır, bu keçidin köhnə ədəbi irsin unudulmasına səbəb olmayacağını, əksinə, yeni mədəni inkişaf mərhələsinə keçidi təmin edəcəyini vurğulayırdı. O qeyd edirdi ki, ərəb qrafikalı əlifba ruhanilərin ideoloji təsirinin alətinə çevrilib və xalqın düşüncəsini məhdudlaşdırır. Latın qrafikasına keçid isə bu təsiri qırmaqla xalqı dini və feodal qaranlıqdan çıxaracaq, onu elmi və texniki tərəqqiyə açıq, müasir düşüncəli cəmiyyətə çevirəcəkdir.

Birinci Türkoloji Qurultayın 12-ci iclası müzakirələrin ən gərgin və elmi baxımdan məhsuldar mərhələlərindən biri olmuşdur. Bu iclasda əsas diqqət əlifba və imla məsələlərinin həllinə yönəlmiş, müxtəlif alim və ziyalıların yanaşmaları səsləndirilmişdir. Çıxış edənlər arasında Cəlaləddin Qorxmazov da olmuş, o, əlifba islahatının yalnız texniki dəyişiklik deyil, həm də milli-mədəni inkişaf və maarifçilik hərəkatı ilə sıx bağlı olduğunu vurğulamışdır. Bununla bağlı o çıxışında qeyd edirdi: *"Mən demək istəyirəm ki, latın əlifbası həm texniki, həm də sosial baxımdan ərəb əlifbasından üstün və kütlələr üçün əlçatandır. Ərəb əlifbası tarixi mədəniyyətin istehsal vasitəsi kimi yalnız azsaylı zəngin zümrəyə xidmət etmiş, geniş xalq üçün əlçatmaz qalmışdır. Oktyabr İnqilabı ilə isə xalq üçün əlçatan mədəniyyət və təhsil imkanları təmin olunmuş, latın əlifbası inqilab məhsulu olaraq bu məqsədə xidmət etmişdir. Latın əlifbasının tətbiqi sürətli tərəqqi üçün zəruridir, çünki bu əlifba həm oxunması və öyrənilməsi baxımından sadədir, həm də geniş miqyasda mətbuat, məktəb və idarəçilik işlərində rahatlıqla tətbiq oluna bilir. Bu islahat həm də milli mədəniyyətin qorunması və inkişafı üçün vacibdir, çünki xalqların yazılı irsi yalnız əlçatarlı və asan istifadəli yazı vasitəsilə daha geniş kütlələrə yayılır"* (Stenoqram, 1926, s. 320-321).

Qurultayda həmçinin başqa bir qrup da mövcud idi ki, onların əsas tələbi *kiril əlifbasının* tətbiqi ilə bağlı idi. Qurultayda nümayəndələrin əksəriyyəti latın qrafikasına keçidi müdafiə etsə də, azlıq təşkil edən bəzi nümayəndələr *kiril əlifbasının* qəbulunu məqsədəuyğun hesab edir və bu istiqamətdə çıxış edirdilər.

Qurultayın 1926-cı il martın 4-də keçirilən 12-ci iclasında çıxış edən Əhməd Baytursunov öz mövqeyini bir daha açıq şəkildə ifadə edərək əlifba məsələsinə dair fikirlərini bölüşmüşdü. O, çıxışında deyirdi: *"Mən latın və ərəb əlifbalarının detallı müqayisəsinə girməyəcəm, çünki bu mövzuda kifayət qədər çıxışlar edilib və ağılla hərəkət edənlər artıq hansı əlifbanın üstün olduğunu başa düşür. Əlifba danışığın əsas işarələr toplusudur; nə qədər sadə və dəqiqdirsə, o qədər mükəmməl sayılır. Əlifbanın dəyişdirilməsi yalnız mövcud sistem işləmirsə aktualdır. Bizim əlifbamız var və onu təsdiqləmək olar. Latınpərəstlərin arqumentləri əsaslı deyil, hisslərə əsaslanır. Əlifbadan əsas tələb səsləri düzgün əks etdirməsi və texniki baxımdan rahat olmasıdır. Biz geridə qalmış xalqıq və əsas ehtiyac məktəblər üçün dərsliklərin təmin olunmasıdır. Latın əlifbasının qəbulunu yalnız əlifbası olmayan xalqlar üçün başa düşmək olar; əlavə əlifba isə ikiqat xərclər və əziyyət deməkdir. Ərəb və latın əlifbalarının hərəsinin üstünlükləri və çatışmazlıqları var. Ağılla hərəkət edən hər kəs rus əlifbasını qəbul etməlidir, çünki bu təhsili daha səmərəli edir; latın əlifbası yalnız xarici təsirlərə görə qəbul edilirsə, daxili zərurət yoxdur..."* (Stenoqram, 1926, s. 286-289).

Ə.Baytursunov kiril əlifbasının tərəfdarı olduğunu açıq şəkildə ifadə edirdi. Onun çıxışını belə ümumiləşdirmək olar. Ə.Baytursunovun fikrincə, əgər bir xalq əvvəldən rus əlifbasından istifadə edibsə, sonra latın əlifbasına keçmək məntiqsiz və mənasız bir addımdır. Çünki bu ikiqat zəhmət, ikiqat xərc deməkdir. O, deyirdi ki, ərəb və latın əlifbalarının hər birinin müsbət və mənfi tərəfləri var, lakin əgər ağılla hərəkət edilərsə, heç bir tərəddüd etmədən, heç bir hissə qapılmadan, rus əlifbasını qəbul etmək daha məqsədəuyğundur.

Mövzu ətrafında konkret faktlar və təkliflərlə çıxış edən qırğız nümayəndə Qasım Tınıstanov öz çıxışında qeyd edirdi: *"Yoldaşlar, mən çox danışmayacağam. Çıxışımın tezisləri Qırğız Muxtar Vilayətinin Vilayət Qurultayı tərəfindən qəbul olunub və "Təşkilat Komitəsinin Bülleten"ində dərc olunub. Burada yalnız bəzi əlavələr və yeni əlifbanın tətbiqi nümunələrini*

göstərəcəyəm. Ərəb əlifbası hərflərin birləşməsində çətinlik yaradır; məsələn, "aradan" sözündə birləşmə mümkün deyil. Latın əlifbasına keçsək, sinxarmonizm qanunlarını qorumaq lazımdır. Qırğızlar iqtisadi baxımdan geri qalsalar da, latın əlifbasının tətbiqi mümkündür; hərflərin ya tam birləşməsi, ya da tam ayrılması əlifba üçün münasibdir. Yazı sürəti məsələsində nəzəri üstünlüklər praktikada bəzən çətinlik yaradır. Latın əlifbasına xalqın etirazı nəzərə alınmalıdır, amma prinsip etibarilə ciddi əsas sayılmamalıdır. Əsas məqsəd gələcək nəsillər üçün islahatları təmin etməkdir. Rus əlifbası da praktik olaraq istifadə oluna bilər. Nəticədə, latın əlifbasının tətbiqi mümkündür və məqsədəuyğundur; çətinliklər praktik məsələlərlə bağlıdır və gələcəkdə təkmilləşdirmələrlə həll edilə bilər" (Stenoqram, 1926, s. 291-293).

Qasım Tınıstanovun Qurultaydakı çıxışında əsas fikir ondan ibarətdir ki, o, yazının fonetik prinsiplərə əsaslanmalı olduğunu, tədris və savadlanma üçün əlverişli qurulmasını və milli fonetikaya uyğunlaşmasını vacib sayırdı. Q.Tınıstanova görə, yeni əlifbanın seçimi xalqın dilinə və düşüncə tərzinə uyğun şəkildə aparılmalı, bu proses sadəlik və məntiqilik prinsipləri ilə yanaşı, milli kimliyi və maarifçiliyi dəstəkləyən bir vasitəyə çevrilməlidir.

3 mart 1926-cı ildə S.Ağamalıoğlunun sədrliyi ilə keçən "Əlifbanın texniki baxımdan quruluşunun əsasları" adlı 10-cu iclasda professor Lev Jirkov çıxış edir. O, çıxışında qeyd edirdi: *"Mən türkoloq deyiləm, amma türk xalqlarının qarşısında duran vəzifələr barədə danışmaq istəyirəm. Bu xalqlar milli həyatlarını yenidən qurur, milli mədəniyyət və irs – nağıllar, bayatlar, bəzək sənəti – bəşəriyyət üçün dəyərlidir. Əsas çətinlik yazıdır; dil təbii, amma yazı sistemi insan müdaxiləsinə bağlıdır. Hər əlifba islahatında fərdi ixtiraçılar mühüm rol oynayıb, texniki bilik isə dil elmi ilə dəstəklənir. Əlifbanın qiymətləndirilməsi üç istiqamətdədir: oxuma rahatlığı, texniki tətbiq və asan mənimsənilməsi. Ərəb əlifbası gözəl olsa da, müasir texnologiyaya uyğunsuzdur; çap və əlyazma zamanı problemlər yaradır, yazı qarışıq görünür. Latın əlifbası isə sadə, oxunması rahat, pedaqoji və texniki baxımdan əlverişlidir. Hərflər asanlıqla ayırd edilir, yazı sürətli olur, savadsızlığın aradan qaldırılmasına kömək edir"* (Stenoqram, 1926: 231-238).

L.Jirkov əlifba məsələsində texniki və sosial aspektləri hərtərəfli nəzərə alır. O, əlifbanın rahat oxunması, işarələrin texniki təsviri və asan mənimsənilməsi kimi üç əsas prinsipin çox vacib olduğunu vurğulayır və bu baxımdan latın əlifbasının ən üstün sistem olduğunu qeyd edir.

Yekun olaraq, L.Jirkov hesab edir ki, əlifba islahatı yalnız texniki baxımdan deyil, həm də sosial və mədəni ehtiyaclara cavab verməli, xalqın maariflənməsi və mədəni irsin qorunması naminə həyata keçirilməlidir. Bu prosesin tədricən və düzgün aparılması vacibdir və onun məqsədi savadsızlığın aradan qaldırılması, mədəniyyətin geniş yayılmasıdır.

Mövzu ətrafında çıxış edən C.Məmmədzadə Qurultayın qarşısında duran əsas məsələnin əlifba məsələsi olduğunu diqqətə çatdırır və bununla bağlı çıxış edir (türk dilində oxuyur, sonra rus dilinə tərcümə edir): *"Yoldaşlar, Qurultay qarşısında əsas məsələ əlifba məsələsidir, çünki terminologiya, orfoqrafiya və ibtidai məktəblərdə tədris bundan asılıdır. Ərəb əlifbası türk-tatar dillərinə uyğun deyil; saitlərin ifadəsi çətindir, sətirüstü və sətiraltı işarələr mürəkkəbdir, Avropa terminləri ilə uyğunlaşmaq çətindir və yalnız bir ovuc ziyalı tərəfindən oxunur. Məqsəd isə milyonlarla kəndli və fəhləni savadlandırmaqdır"* (Nərimanoğlu, Ağakişiyev, 2006: 217-221).

Beləliklə, C.Məmmədzadənin çıxışı Birinci Türkoloji Qurultayın ideya istiqamətlərindən birini – əlifba islahatının zəruriliyini və onun mədəni-sosial mahiyyətini dolğun şəkildə əks etdirir. O, çıxışında vurğulayırdı ki, Qurultayın qarşısında duran ən mühüm məsələ əlifba məsələsidir, çünki bu məsələ təkcə yazının forması ilə deyil, maarifin inkişafı, savadsızlığın aradan qaldırılması, elmin, təhsilin və mədəniyyətin tərəqqisi ilə birbaşa bağlıdır.

Birinci Türkoloji Qurultayın əlifba mövzusundakı çıxışlarla bağlı qərarları

Birinci Türkoloji Qurultayda əlifba məsələsi ən geniş və ciddi şəkildə müzakirə olunan mövzulardan biri oldu. Qurultayın gedişində ərəb və latın qrafikası ilə bağlı müxtəlif tərəflərdən çıxışlar edildi, hər iki əlifbanın üstün və zəif cəhətləri dilçi alimlər, pedaqoqlar, maarifçilər və türk xalqlarının müxtəlif nümayəndələri tərəfindən ətraflı şəkildə təhlil olundu. Əlifbanın yalnız texniki məsələ deyil, həm də mədəni, siyasi və pedaqoji əhəmiyyət daşıdığı vurğulandı. Bütün bu uzun və səmərəli müzakirələrdən sonra artıq məsələnin konkret həll mərhələsinə keçildi.

Beləliklə, Qurultayın son günlərində qətnamənin qəbul edilməsi məqsədilə iki əsas təklif müzakirəyə təqdim olundu və bu təkliflər nümayəndələr tərəfindən diqqətlə dinlənildi. Bu addım əlifba məsələsində yekdil qərarın verilməsi istiqamətində əhəmiyyətli mərhələ idi.

Birincisi, Cəlaləddin Qorxmazovun təklifi: *"Yoldaşlar, Azərbaycan və bütün Qafqaz respublikalarının, Özbəkistan, Qırğızıstan, Dağıstan, Türkmənistan, Yakut vilayətlərinin, Şimali Qafqazın – Qaraçay, Balkar, Kabardin, İnquş, Çeçen, Adıgey-Çərkəz, Osetin muxtar vilayətlərinin, Türkmən muxtar bölgəsinin nümayəndə heyətləri aşağıdakı təklifi irəli sürürlər.*

1. Yeni türk-tatar əlifbasının ərəb və islah olunmuş ərəb əlifbası üzərindəki üstünlüklərini və texniki üstünlüyünü (alqışlar), həmçinin ərəb əlifbası ilə müqayisədə yeni əlifbanın möhtəşəm mədəni-tarixi və mütərrəqi əhəmiyyətini təsdiq edərək, Qurultay həmin əlifbanın ayrı-ayrı türk-tatar respublikaları və vilayətlərində qəbulunu və həyata keçirilmə üsulunu hər bir respublika və xalqın öz işi sayır.

2. Bununla əlaqədar qurultay Azərbaycanın, SSRİ respublikalarının (Yakutiya, İnquşetiya, Qaraçay, Çərkəz, Kabarda, Balkar və Osetin) yeni türk latın əlifbası qəbul etmələrini çox böyük əhəmiyyətə malik fakt kimi dəyərləndirir. Yeni türk-tatar əlifbasının qəbulu sahəsində SSRİ-nin adları çəkilən vilayət və respublikalarında aparılmış nəhəng müsbət işi qeyd edən və qızğın salamlayan Qurultay bu işi özləri üçün həyata keçirmək məqsədilə bütün türk-tatar respublikalarında Azərbaycanın və digər vilayət və respublikaların təcrübəsini və iş üsulunu öyrənməyi tövsiyə edir" (Stenoqram, 1926: 320).

İclasın sədri Həbib Cəbiyev: *"Başqa təklif var?"*

İkinci təklif Qalimcan Şərif tərəfindən irəli sürülür. *"Mənim belə bir təklifim var:*

1) Hər iki - həm ərəb, həm də latın şirif sisteminin türk dillərinə xidmət edə bilməsini təsdiqləmək;

2) Latın sisteminin türk dillərinə tədbiqi sahəsində Azərbaycan Respublikasının gördüyü möhtəşəm işi, həmçinin əvvəlki ərəb şriflərinin islahı istiqamətində Tatar respublikasının apardığı işi nəzərə alaraq, məsələnin türk dilləri üçün bu və ya digər sistemin daha yaxşı olacağı anlamında qəti həllini açıq saxlamaq;

3) Hər halda razılaşmaq ki, bütün türk dilləri , ən azı onlardan indiyənədək ərəb sistemində istifadə edənlər üçün vahid heroqlif sistemi müəyyənləşdirilməli və həmin məsələ II Türkoloji Qurultay tərəfindən həll olunmalıdır.

4) Həm latın sistemi, həm də digər sistem üzrə digər türk xalqlarından eyniyyət olması məqsədilə, təklif edilən işarələrin razılaşdırılması üçün biri islahatçılardan, digər isə latınpərəstərdən ibarət olan iki komissiya yaratmaq. Ərəb xətti üzrə islahatın qəti prinsiplərini müəyyənləşdirmək və yazılı razılaşdırmaq".

Sədr: *"Yoldaşlar, yoldaş Qorxmazovun burada oxuduğu qətnaməyə başqırd nümayəndə heyəti də qoşulur (səs-küy və alqışlar). Yoldaşlar, qərar açıqdır. Burada həm ərəb, həm də latın əlifbasının tərəfdarları öz fikirlərini kifayət qədər ifadə etdilər. Hər iki qərarı səsverməyə təqdim edirəm və bu məsələni səsvermə yolu ilə həll edəcəyik. Səsverməyə təqdim edirəm. Kimin yoldaş Qorxmazovun təklif etdiyi qətnamənin lehinə səsi varsa, xahiş edirəm, əlini qaldırsın. Əksəriyyət (səs-küy və alqışlar). Kimin yoldaş Qalimcan Şərəfin oxuduğu qətnamənin lehinə səsi varsa, xahiş edirəm, əlini qaldırsın — 7 nəfər.*

Səsvermənin nəticəsi aşağıdakı kimi oldu:

Yoldaş Qorxmazovun qətnaməsinin lehinə 101 səs (güclü və davamlı alqışlar). Yoldaş Şərəfin qətnaməsinin lehinə 7 nəfər səs verib, 9 nəfər isə bitərəf qalıb. Daha sonra Qurultayın qəbul etdiyi qətnaməni çap etmək və bəzi düzəlişlər aparmaq üçün aşağıdakı tərkibdə komissiya seçildi: Qorxmazov, Cəbiyev, professor Yakovlev, professor Jirkov, Bərdiyev, Məmmədzadə, Becan Rəhmanov, Türyaqulov, Alparov, Qalimcan Şərəf, Alimcan İbrahimov, Pavloviç, Baytursun, Tınıstanov, Umar Əliyev, Malsaqov, İnaqamov, İdelquzin, Ayvazov, professor Çobanzadə, Qayaz Məqsudov, Baraxov, Sabaşkin, Şahmuradov, Noqovitsin, Sabirov.

İclasa saat 21:30-da yekun vurulur.

Qurultay iştirakçıları ümumilikdə böyük türk şairi Əlişir Nəvainin 500 illiyinə həsr olunmuş möhtəşəm axşam tədbirinə qatılırlar" (Stenoqram, 1926: 321-322).

Qurultayda əlifba məsələsi uzun və məhsuldar müzakirələrə səbəb oldu. Həm ərəb, həm də latın əlifbasının tərəfdarları öz mövqelərini əsaslandıraraq müxtəlif arqumentlər təqdim etdilər. Hər iki tərəfin fikirləri geniş şəkildə dinlənildi və müzakirə edildi. Müzakirələrdən sonra qərar verildi ki, əlifba məsələsi səsvermə yolu ilə həll olunsun.

Səsvermə nəticəsində latın qrafikasının qəbuluna üstünlük verildi və bu, ümumtürk əlifbasının formalaşdırılması və tətbiqi istiqamətində mühüm addım oldu. Latın əlifbasının tərəfdarları geniş əksəriyyəti təşkil etdi, ərəb əlifbasının tərəfdarları isə azlıqda qaldı. Bu nəticə Birinci Türkoloji Qurultayın tarixində əhəmiyyətli dönüş nöqtəsi hesab olunur.

Yeni türk əlifbası barədə qurultayın qətnaməsi

Birinci Beynəlxalq Türkoloji Qurultayın latın qrafikalı əlifbaya keçməklə bağlı qəbul etdiyi qətnamə belə olmuşdur: Qurultayda geniş və məhsuldar müzakirələrdən sonra əlifba məsələsi səsverməyə çıxarılmış, həm ərəb, həm də latın əlifbasının tərəfdarları öz mövqelərini əsaslandırmışlar. Səsvermə nəticəsində latın qrafikasının qəbuluna üstünlük verilmiş və bu, ümumtürk əlifbasının tətbiqi istiqamətində mühüm addım sayılmışdır. Qətnamənin həyata keçirilməsi üçün geniş tərkibli komissiya yaradılmışdır. Bu qərar türk dünyasında əlifba islahatlarında əsas dönüm nöqtəsi kimi qiymətləndirilir.

1. Qurultay ərəb əlifbasının islah edilməsi və yeni türk əlifbasının (latın qrafikalı əlifbanın) ərəb əlifbasından texniki cəhətdən mükəmməl olmasını təsdiq edir, o cümlədən yeni əlifbanın ərəb əlifbası ilə müqayisədə mütərəqqi mahiyyətini və mədəni-tarixi nüfuzunu qəbul edir. Qurultay hesab edir ki, yeni əlifbanın həyata keçirilməsi hər bir türk-tatar respublikasınını, vilayətinin və xalqının işidir.

2. Bununla bağlı olaraq qurultay yeni əlifbanın həyata keçirilməsini müsbət hal kimi qiymətləndirir. Latın əlifbası əsasında yaranmış yeni türk əlifbasının qəti olaraq vilayətlərdə və respublikalarda (Azərbaycanda, Yakutiyada, Qırğızstanda, İnquşiyada, Qaraçay Çərkəzdə, Kabardində, Balkarda, Osetiyada, Çeçenistanda, Başqırdıs tanda, Türkmənistanda, Özbəkistanda, Adıgey-Çərkəzdə) həyata keçirilməsini geniş bir hərəkat kimi qəbul edir.

Qurultay yuxarıda adları göstərilən vilayətlərdə və respublikalarda yeni türk əlifbasının (latın) həyata keçirilməsi ilə bağlı görülmüş müsbət işləri ürəkdən alqışlayır, məsləhət görür ki, bütün türk-tatar və başqa xalqlar yeni reformalar aparmaq üçün Azərbaycanın, eləcə də digər respublikaların təcrübəsindən, metodundan (üsulundan) istifadə etsinlər (Qasımov 2019: 123).




يكى الفبا حقنده قرار

يرنجى) تەخنيقى جهتدن يكى تورك (لاتين) الفباسينك عرب و اصلاح ايديلمش عرب الفباستدان داها الويرشلى اولديغينى، و عرب الفباسينه نسبتا يكى الفبانك مدنى—تاريخى و مترقى بر ماهيته مالك اولديغينى قيد ايده‌رەك، قورولتاى، آيرى — آيرى تورك تاتار جمهوريت و اوبلاستلاريندا يكى الفبانك قبول و حياته كچر يلمه‌سى اصولنى، هر بر خلقك ئوز ايشى ييليور. ايكينجى— بونكله علاقه‌دار اولاراق،قورولتاى يكى الفبانك آذربايجان و شورالار اتفاقينك (ياقوت، اينغوشستان، قارا چاى — چركس،

قاباردين، بولقار و اوسەتيا)جمهوريت و اوبلا— ستلاريندا حياته كچريلمەسنك بويوك مثبت‌نتيجه لر ويرديكينى تصديق ايديور.

يكى تورك (لاتين) الفباسنك يوقاريدا كو سته‌ريلن جمهوريت و اوبلاستلار طرفيندن حياته كچريلمەسنده بويوك موفقيتلر الده ايتديكينى صميمى بر صورتده تبريك و قيد ايده‌رەك قو— رولتاى، آذربايجان و باشقا جمهوريت، اوبلاستا رك بو يولدا تطبيق ايتديكلرى اصول و تجربه لرك توكره‌نيلمەسينى، بوتون تورك— تاتار خلقلرينه توصيه ايديور.

Yeni əlifba haqqında qərar
"Kommunist" qəzeti, 5 mart 1926-cı il, №55, səh. 2.
(Azərbaycan Milli Kitabxanası)




Резолюции 401

Резолюция С'езда о новом тюркском алфавите.

1. Констатируя преимущества и техническое превосходство нового тюркского (латинского) алфавита над арабским и реформированным арабским алфавитом, а также огромное культурно-историческое и прогрессивное значение нового алфавита сравнительно с арабским, С'езд считает введение нового алфавита и метод его проведения в отдельных тюрко-татарских республиках и областях делом каждой республики и каждого народа.

2. В связи с этим С'езд констатирует факт огромного положительного значения, заключающийся во введении Азербайджаном, областями и республиками СССР (Якутией, Киргизстаном, Ингушетией, Карачаево-Черкесской, Кабардинской, Балкарской, Осетией и Чечней) и широком движении за введение нового алфавита на латинской основе в Башкирии, Туркменистане, Узбекистане и Адыгейско-Черкесской области.

Отмечая и горячо приветствуя положительную работу, проделанную означенными областями и республиками в области введения нового тюркского (латинского) алфавита, С'езд рекомендует всем тюрко-татарским и другим народам изучить опыт и метод Азербайджана и других областей и республик СССР, для возможного проведения у себя этой реформы.



Bakı Türkoli Qurultayında səs çoxluğu ilə qəbul edilən Birləşdirilimiş Yeni Türk Əlifbası[1]

Ədəbiyyat

1. Xocayev, X.S. (1929). Yeni əlifba yollarında əski xatirə və duyğularım. Bakı.
2. İbrahimov, E. (2014). 1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultayda türkdilli xalqlar üçün ədəbi dil və ortaq türk dili məsələsi. *Tədqiqlər*, (2), 26-41.
3. İbrahimov, E. (2014). Birinci Türkoloji Kurultayda Türkler İçin Edebi Dil ve Ortak Alfabe Meselesi. *14. Uluslararası Dil, Yazın ve Deyişbilim Sempozyumu*, İzmir, Türkiye.
4. İbrahimov, E. (2015). 1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultayda Türkdilli xalqlar üçün ədəbi dil məsələsi. In *Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" VI Beynəlxalq elmi konfrans*. Bakı Slavyan Universiteti.
5. İbrahimov, E. (2016). Birinci Türkoloji Qurultayda türkdilli xalqlar üçün ədəbi dil məsələsi. In *Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri XV beynəlxalq elmi-praktiki konfransın materialları*, 5-8.
6. İbrahimov, E. (2016). Türk dünyasında ortak konuşma dili oluşturulmasında alfabe və imla sorunları. *Gazi Türkiyat*, Bahar 2016 (18), 213-220.
7. İbrahimov, E. (2017). Birinci Türkoloji Kurultayda Kırgız Türkolog Kasım Tınıstanov. In *II. Uluslararası Sosyal Bilimler Lisansüstü Öğrenci Kongresi*. Bişkek, 25.
8. İbrahimov, E. (2020). Bağımsız Türk Cumhuriyetlerinde Dil Politikası (Azerbaycan Örneği). Türk Dünyası Dil ve Edebiyat Dergisi, 50, 99-116.
9. Nerimanoglu, K. V., & Öner, M. (çev.). (2008). *1926 – Bakü Türkoloji Kurultayı: Tutanaklar (26 Şubat – 6 Mart 1926)*. Ankara: Türk Dil Kurumu Yayınları.

[1] Foto görkəmli türkiyəli türkoloq alim professor Haluk Şükür Akalının şəxsi arxivindən götürülüb.

10. Nərimanoğlu, K.V., & Ağakişiyev, Ə. (2006). 1926-cı il I Bakı Türkoloji Qurultayı. Bakı: Çinar-Çap.
11. Öner, M. (1999). I. Bakû Türkoloji Kongresi'nde İdil-Ural Türkleri. İçinde 1926 Bakû Türkoloji Kongresinin 70. yıl dönümü toplantısı (29-30 Kasım 1996) (13-25). Ankara: TDK Yayınları.
12. Türkoloji qurultayını çağıran təşkilat komissiyası plenumunun iclası [Ərəb qrafikasında]. (1926). Kommunist, № 4.
13. Yeni yol qəzeti. 1922, № 1.
14. Yeni Yol qəzeti. 1923, № 37.
15. Yeni yol qəzeti. 1924, № 35.
16. Первый Всесоюзный Тюркологический съезд. 26 февраля – 5 марта 1926 г. Стенографический отчет. (1926). Баку